**Hüseynov F.R.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.63.25-28**
**UOT 364**

## Koronavirus pandemiyası - Azərbaycan nefti - Yeni sosial müdafiə modeli

**Xülasə:** Hər bir ailəyə fərdi yanaşma prinsipi ilə dövlət tərəfindən ünvanlı və faydalı dəstək göstərilməsi üçün qərar qəbul etmə məqsədi ilə beynəlxalq mütərəqqi təcrübəyə uyğun olaraq ailədə yoxsulluq həddini yaradan bütün amillər dəqiq müəyyən edilməli, sosialmüdafiə sisteminin elementləri vahidbir sistemə inteqrasiya olunmalıdır. Covid-19 koronavirus pandemiyası nəticəsində əhalinin qarşılaşdığı çətinliklər və problemlər də nəzərə alınmaqla yeni çağırışlara adekvat cavab verən ünvanlilq prinsipi asasında "Ailə müavinəti" differensiallaşmış qaydada uşaqların sayına söykənən yeni sosial müdafiə modeli yaradılması məsələsinə baxılmalıdır.

**Açar sözlər**: pandemiya; neft erası; sosial müdafiə; əhalinin həssas kateqoriyası; ünvanlılıq; ədalətlilik; çevik qərar qəbul etmə; yoxsulluq; sosial gərginlik.

Ölkələrin səhiyyə sistemlərinə və qlobal iqtisadi dəyər zəncirinə dağıdıcı zərbə vurmuş COVİD-19 koronavirusu "Böyük Depressiya"dan (2008) sonra müşahidə olunan ən böyük tələb və təklif şoklarını da özü ilə gətirmişdir. Bu gün pandemiya sağlamlıqla bağlı narahatlıqlar, insanların, mal və əmtəələrin hərəkətinə məhdudiyyətlər, biznes və istehlakçı inamının düşməsi, qlobal əmtəə bazarlarının və istehsalın çökməsi ilə müşayiət olunmaqdadır. Artıq onun vurduğu zərər bazarlarda bu vaxta qədər neft qiymətlərini aşağı doğru tətikləyən digər əsas amilləri (rəqabət, regional konfliktlər və s.) arxa plana keçirmiş, nüfuzlu beynəlxalq təşkilatlar ən yaxşı halda 2008-ci ildən bəri dünyada müşahidə olunan kəskin böhranın baş verdiyini təsdiq edirlər.Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) üzv və qeyri-üzv ölkələrin nazirlərinin 9-cu iclasında əldə edilən razılığa görə, Azərbaycan mayın 1-dən gündəlik xam neft hasilatını 164 min barrel azaltmalıdır. Ölkə neft hasilatını 2022-ci ilin aprelinə qədər müddətdə müxtəlif həcmlərdə azaltmaq öhdəliyi götürüb. Koronavirus pandemiyasının bütün dünyada yayılmasından sonra neftin giyməti kəskin azalıb. Yaranmış vəziyyət ilə bağlı ABŞ-ın West Texas Intermediate (WTI) markalı neftinin bir barelinin qiyməti tarixdə ilk dəfə mənfi 37,63 dollara qədər enib. Qlobal dünya iqtisadiyyatının üzvü olan Azərbaycanın da koronovirus pandemiyası nəticəsində buna oxşar arzu olunmaz vəziyyətə düşməsi istisna deyil və bu halda iqtisadiyyatımızın boyük çətinliklərlə üzləşməsi ehtimalı yüksəkdir. Neftin qiymətinin kəskin düşməsi isəiqtisadiyyatında neft gəlirlərinin payı yüksək olan ölkələrin bütün makroiqtisadi göstəricilərinə ciddi təsir göstərəcək.Bu halda yarana biləcək sosial və iqtisadi gərginliyin qarşısının alınması məqsədi ilə hökumət tərəfindən çevik anti-böhran tədbirlərinin həyata keçirilməsi qaçılmazdır. Azərbaycanda iqtisadi subyektlərə ediləcək yardım paketinin həcmi və sosial tədbirlərin əsas konturları 2020-ci il 19 mart tarixli "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra

♦ **Hüseynov Fuad Ramiz oğlu -** iqtisadiyyat üzrə fəlsəfə doktoru, AMEA-nın Hüquq və İnsan haqları İnstitutunun "Mülki hüquq, mülki proses, sosial-iqtisadi hüquqlar" şöbəsinin müdiri (Azərbaycan). E-mail: fuad_200@hotmail.com

tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı"nda həmin tədbitlər öz əksini tapıb. Bu cür çevik addım bir daha ölkəmizin sosial yönümlü və insan amilinin öndə olmasının baris nümunəsidir.Pandemiya nəticəsində yaranmış vəziyyət ilə bağlı ölkə başçısı tərəfindən işsiz şəxslərə yaşayış minimumu məbləğində aprel va may ayları üzrə birdəfəlik ödəmənin verlməsi təşəbbüsü göstərilmişdir. Bununla yanaşı müşahidələr göstərir ki, həmin birdəfəlik ödəmələrin təyin edilərək verilməsi zamanı bugünə qədər böyük çətinliklər və qanunvericiliklə ziddiyyət təşkil edən hallarla müşayiət olunur ki, buda öz növbəsində vətəndaşlar tərəfindən haqlı narazılıqlarla qarşılanmaqla sosial gərginliyə səbəb olur. Əlbətdə, bu yeni və gözlənilməyən fors major haldır (Pandemiya), cətinliklər olmalıdır, təbiidir, lakin çətin həyat səraitinə düşmüşbütün həssas kontinget ünvanlılıq və ədalətlilik prinsiplərinə uyğun olaraq bu dəstək ilə əhatə olunmalıdır və ehtiyacı olan heç kəs kənarda qalmamalıdır. Bu baxımdanaidiyyəti dövlət idarəetmə orqanlarının bu kimi məsələlərin həlli ilə bağlı fəaliyyətlərinin ciddi təkmilləşdirilməsinə ehtiyac duyulur, məsələlərin həllində ünvanlılığ və əhatəlilik, ədalətlilik prinsiplərinə söykənən yeni mexanizmlər işlənilməsi, bu kimi situasiyalarda çevik qərarlar qəbul etmək imkanlarına etibarlızəminlər yaradılması zəruridir. Qeyd olunmalıdır ki, ölkəmizdə 2006-cı ildən etibarən bugünədək yoxsulluq həddini müəyyən edən yeganəsənəd ünvanlı dövlət sosial yardımı proqramıdr (ÜDSY) və həmin proqram vasitəsi ilə aztəminatlı ailələrə dövlət tərəfindən pul yardımı verilir. ÜDSY proqramı tam avtomatlaşdırılmış səkildə fəaliyyət göstərir və ümumilikdə təxminən 75000 ailəni əhatə edir. ÜDSY haqqinda Qanununa uyğun olaraq: **Aztəminatlı ailə dedikdə,** orta aylıq gəlirləri hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan ailələrə verilir, **Ailənin gəlirləri** dedikdə, ailə üzvlərinin bütün növ gəlirləri, o cümlədən müavinətlərdən, təqaüdlərdən, faktiki alınan alimentlərdən, kreditdən, səxsi yardımçı təsərrüfatından alınan gəlirlərindən, kənd təsərrüfatından alınan subsidiyalardan, və sair əldə olunan pul və natural formada gəlirlərinin toplusu nəzərdətutulur. Araşdırmalar göstərir ki, bugünkü Koronovirus-pandemiyası ilə əlaqədar ölkənin sosial-iqtisadi vəziyyəti ilə bağlıyeniçağırışlar ÜDSY proqramın yenidən əsaslı baxılmasını, bütövlükdə məsələyə yanaşma metodologiyasının təkmilləşdirilməsini gündəmə gətirir. Belə ki, ailədə yoxsulluq həddini yaradan bir-çox obyektiv və subyektiv amillər ola bilir və nəzərə alsaq ki, hər bir ailə fərdidir, bu məqsədlə vahid yanaşma metodlarına söykənən və yalnız pul şəklində dövlət tərəfindən dotasiyanın verilməsimodeli kimi fəaliyyət göstərənÜDSY proqramıyeni çağırışalra cavab vermir, proqramın əsas meyarları olan ünvanlılıq, ədlətlilik və bərabərlik prinsipləri həmin çağırışların qarşısında bir sırahallarda aciz qalır. Qeyd olunmalıdır ki, ölkə əhalisinin sosial durumu ilə bağlı aidiyatı dövlət idarəetmə qurumlarının mövcud elektron məlumat ehtiyatları əhalinin bütün həssas kateqoriyalarına belə vəziyyətlərdə dövlət dəstəyinin göstərilməsi üçün müvafiq real qərarların qəbul edilməsi üçün bir sıra hallarda kifayət etmir. Dövlət başçısınında Covid-19 yeni koronovirus pandemiyası ilə əlaqədar tədbirlər barədə çıxışlarında da qeyd olunduğu kimi ölkədə işsizliyin rəsmi göstəricisi, kölgə iqtisadiyyatı altında çalışanlar, eləcədə qeyri formal məşğul insanlar, kənd yerlərindəyaşayan, lakin bu gun real fermer təsərrüfatı olmayan ailələr, və bir sıra digər kateqoriya şəxslər haqqında təfsilatlı məlumatların olmaması, bəzi hallarda isə ayrı-ayrı qurumlarda bunlara dair fərqli məlumatların mövcudluğu zərurət yarandığı təqdirdə dövlətin çevik, ünvanlı və adalətli qərarlar qəbul etməsində xeyli çətinliklər yaratdı və Covid-19 koronavirus pandemiyası ilə əlaqədar ölkə əhalisinə dövlət dəstəyinin göstərilməsi tədbirlərinin həyata keçirilməsinin ilk günlərindən biz bunun şahidi olduq.

Qeyd olunanlar baxımından hesab edirəm ki, aidiyyəti dövlət qurumlarının ölkə əhalisi və onların sosial durumu ilə bağlı qanunvericiliklə müəyyən olunmuş məlumat ehtiyatlarının

yaradılması və məlumat bazalarının qurumlar arası əlaqələndirilməsi və ƏƏSMN-in bu məlumatlar əsasında əhaliyə göstəriləcək dövlət dəstəyinin ünvanlılığının və əhatəliyinin təmin olunması işlərinin daha da təkmilləşdirilməsi böyük ehtiyac yaranır.

Bu zaman aşağıdakıların nəzərə alinması xüsusi əhəmiyyət kəsb edir: hər bir ailəyə fərdi yanaşma prinsipi ilə dövlət tərəfindən ünvanlı və faydalı dəstək göstərilməsi üçün qərar qəbul etmə məqsədi ilə beynəlxalq mütərəqqi təcrübəyə uyğun olaraq ailədə yoxsulluq həddini yaradan bütün amillər dəqiq müəyyən edilməli, sosial müdafiə sisteminin elementləri vahid bir sistemə inteqrasiya olunmalıdır. Belə praktikanın tədbiqində eyni zamanda ailələrin yardımın alınmasından sui istifadə hallarının riski də çox az olur. Ailələr çətin vəziyyətdə olub olmamalarından asılı olmayaraq bu məsələyə “dövlətdən pul qopardım” anlayışı ilə yanaşma halları minimallaşır, və dövlətə daha çox ədalətli və güvənc yeri baxışları formalaşmasına zəmin yaranacaqdır. Covid-19 koronavirus pandemiyası nəticəsində əhalinin qarşılaşdığı cətinliklər və problemlər də nəzərə alınmaqla yeni çağırışlara adekvat cavab verən ünvanlilq prinsipi asasında “Ailə müavinəti” differensiallaşmış qaydada uşaqların sayına söykənən yeni sosial müdafiə modeli yaradılması məsələsinə baxılsın. Əksər hallarda ailələrdə yoxsulluq həddini yaradan məhz üşaqlar təşkil etdiyini və son dövrdə içtimaiyyət arasında “uşaq pulu” mövzusu ilə tez tez gündəmə gələn məsələ olduğunu nəzərə alaraq “Ailə müavinəti” modeli aktuallaşır. Həmin modelin tədbiqi ünvanlılıq, ədalətlilik, əhatəlilik prinsiplərinin bərqərar edilməsinə, dövlət büdcəsindən ayrılan vəsaitinin səmərəliliyinə və qənaətinə, bütün fors major hallardan irəli gələnyeni çağırışlara çevik və adekvat cavab verilməklə əhalinin sosial müdafiəsi ilə bağlı konstitusion hüquqların təmini prosesinə yenitəkan verə bilər. BU isə Ümummilli lider Heydər Əliyev tərəfində prioritet istiqamət olaraq müəyyən edilmiş sosial dövlət quruculuğu yönümündə dövlətin növbəti addımı kimi əhali tərəfindən müsbət qarşılanar.

## Biblioqrafiya

1. URL: https://az.wikipedia.org/wiki/COVID-19_koronavirus_pandemiyas%C4%B1
2. URL: https://nk.gov.az/az/document/4905/
3. URL: http://sosial.gov.az/#
4. URL: https://www.bbc.com/azeri/international-52308925

**Huseynov F.R.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.63.25-28**
**UDC 364**

## Coronavirus pandemic - Azerbaijani oil - New social protection model

**Abstract:** According to the international best practices, all the factors that lead a family to poverty should be clearly defined, the elements of social protection should be integrated into a single system, and the state should provide targeted and useful support to each family in the decision-making process based on an individual approach. As a result of the Covid-19 coronavirus pandemic, there was a need to create a new model of social protection based on a differentiated

♦ **Huseynov Fuad Ramiz oglu –** PhD in Economics, Head of the Department of Civil Law, Civil Process, Social-Economic Rights of the Institute of Law and Human Rights of the Azerbaijan National Academy of Sciences (Azerbaijan). E-mail: fuad_200@hotmail.com

approach that focuses on the number of children in the family, the “Family allowance”, which adequately responds to new challenges, taking into account the difficulties and problems faced by the population.

**Keywords**: pandemic; oil era; social protection; disadvantage group of population; targeting; justice; flexible decision making; equity; poverty; social tension.

## References

1. URL: https://en.wikipedia.org/wiki/COVID-19_pandemic
2. URL: https://nk.gov.az/az/document/4905/
3. URL: http://sosial.gov.az/#
4. URL: https://www.bbc.com/azeri/international-52308925

**Гусейнов Ф.Р.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.63.25-28**
**УДК 364**

## Пандемия Коронавируса - Азербайджанская нефть – Новая модель социальной защиты

**Аннотация:** В соответствии с лучшей международной практикой, все факторы, которые создают бедность в семье, должны быть четко определены, а элементы системы социальной защиты должны быть интегрированы в единую систему, чтобы принять решение об оказании адресной и полезной государственной поддержки каждой семье на индивидуальной основе. С учетом трудностей и проблем, с которыми сталкивается население в результате пандемии коронавируса Covid-19, вопрос о создании новой модели социальной защиты, основанной на количестве детей, следует рассматривать на основе принципа адекватного реагирования на новые вызовы.

**Ключевые слова**: пандемия; нефтяная эра; социальная защита; уязвимые слои населения; адресность; скорейшее принятие решения; бедность; справедливость; социальная напряженность.

## Библиография

1. URL: https://ru.wikipedia.org/wiki/Пандемия_COVID-19
2. URL: https://nk.gov.az/az/document/4905/
3. URL: http://sosial.gov.az/#
4. URL: https://www.bbc.com/azeri/international-52308925

[♦] **Гусейнов Фуад Рамиз оглы** – доктор философии по экономике, заведующий отделом «Гражданское право, гражданский процесс, социально-экономические права» Института Права и прав человека НАНА (Азербайджан). E-mail: fuad_200@hotmail.com